# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Ermənilər azərbaycanlılarla sülh şəraitində yaşayacaqlarına inanırlarmı?



7

SƏS

№ 214 (7382)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 noyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# 33 ilin Yeni Azərbaycan Partiyası: uğurlar və qələbələr



2

# Ukrayna üçün yeni "sülh planı"




3

## "Mən sizdən Allaha şikayət edəcəyəm!"



5

## Azərbaycanda niyə xarici banklar fəaliyyət göstərmir?




8

## "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik"



6

## Moskva İrəvanda Paşinyana rəqib axtarır...



4

## "Ailə institutunun zəifləməsi cəmiyyətdə sosial sabitliyi zəiflədir"



8

# 33 ilin Yeni Azərbaycan Partiyası: uğurlar və qələbələr

Bugün dünyada siyasi partiyaların nə zaman yaranması ilə bağlı birmənalı mövqe mövcud deyil. İddialar ondan ibarətdir ki, siyasət adlanan fəaliyyət növü meydana gələn gündən partiyalar da mövcud olub. Siyasət də dəyişən yalnız onların funksiyaları və fəaliyyətləridir. Cəmiyyətlərin yaranan siyasi partiyalara münasibətləri də əsas rol hesab olunur. Siyasi partiyaların hansı dövrdə yaranması ilə bağlı aparılan ziddiyyətli müzakirələr fonunda əsasən partiyaların yaranması fakt olaraq on doqquzuncu əsrin sonları iyirminci əsrin əvvəllərinə təsadüf edir. Siyasi partiyaların ölkələrin əsas güc mərkəzinə çevrilməsi isə iyirminci əsrin sonlarından başlamışdır. Hazırda demək olar ki, bütün ölkələrdə bu və ya başqa sayda siyasi partiya və partiya sistemi fəaliyyət göstərir. Təbii ki, sağlam, ümumi cəmiyyətin maraqlarına uyğun siyasət yürüdən partiyalar dövlətin inkişafına töhfə vermiş olurlar. Bir-biri ilə çəkişən, özəl maraqlardan çıxış edən siyasi partiyalar cəmiyyətin inkişafına mane olur və əhalinin mənfi rəyini qazanırlar. Fransız politoloqu və sosioloqu Moris "Politologiya" əsərində sübut etməyə çalışır ki, "bir-biri ilə mübahisə edən partiyalar cəmiyyətin sağlamlığı üçün ziyanlıdırlar, çünki onlar sosial orqanizmin məhsuldar fəaliyyətinin qarşısını almaqla, onu parçalayır və beləliklə dağıdırlar".Müasir dövrün reallıqlarına, xüsusilə də Azərbaycan siyasi səhnəsində cərəyan edən hadisələrə əsasən demək olar ki, ölkəmizdə dünya siyasət sisteminin tələblərinə cavab verən yeganə siyasi partiya Yeni Azərbaycan Partiyasıdır. Bu partiya yarandığı gündən sağlam, ümumi cəmiyyətin maraqlarına və dövlətin mənafeyinə uyğun fəaliyyət göstərib. Bu baxımdan da xalqın inam və etimadını qazanıb. Haqlı olaraq Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın xilaskarı Ulu Öndərimiz Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" deyə bildirmişdir. Azərbaycanın hər uğurunda Yeni Azərbaycan Partiyasının payı və rolu var.

Ölkəmizdə keçirilən bütün seçki proseslərindən YAP-ın uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, məlum olar ki, Yeni Azərbaycan Partiyası 1993-cü ildən prezident, parlament, bələdiyyə seçkilərində uğur qazanmasını əsas səbəbi xalqın Ulu Öndər Heydər Əliyev siyasətinə bağlı olması, Prezident İlham Əliyevin xeyirli, gərəkli fəaliyyətinə yüksək qiymət verməsidir. Azərbaycan Prezidenti,yeni azərbaycan partiyasının Sədri İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir. Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

## Tariximizə işıq salan faktlar

Azərbaycan xalqının mübarizliyi, qarşısına qoyduğu hədəflərinə çatmaq uğrunda göstərdiyi qətiyyət 30 avqust 1991-ci ildə Azərbaycan parlamentinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etməsi ilə nəticələndi. Bəyannamədə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı. Təəssüflər olsun ki, bəzi qüvvələr çətinliklə qurulan müstəqilliyi hakimiyyət uğrunda savaşa qurban verməyə çalışdılar. Ötən əsrin 90-cı illərin əvvələrində Azərbaycanda bütün sahələrdə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Hakimiyyətdə olan AXC- Müsavat cütlüyü mövcud vəziyyəti aradan qaldırmaqdansa haqq uğrunda səsini qaldıran xalqın səsini batırmağa çalışırdı. Hətta küçələrə çıxan insanlara atəş açmaqdan, həbs edib, türmələrə atmaqdan çəkinmirdilər. Vəziyyətin idarəolunmaz dərəcədə kritik olmasından istifadə edən Ermənistan ardıcıl olaraq Azərbaycanın torpaqlarını işğal edirdi. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılması mütləq tarixi zərurətə çevrilmişdi. Hər zaman olduğu kimi bu dəfə də Azərbaycan xalqının ümid yeri Ümummilli Liderimiz, Xalqımızın xilaskarı Heydər Əliyev idi. Məhz bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı "Səs" qəzeti vasitəsi ilə yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevə müraciət ünvanladı. Həmin ilin oktyabrın 24-də Ulu Öndərimiz Heydər Əliyev "Səs" qəzeti vasitəsi ilə ziyalıların müraciətinə müsbət cavab verdi. Beləliklə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsisi konfransı keçirildi və Dahi Öndərimiz partiyanın Sədri seçildi. Bu barədə sonralar Dahi Öndərimiz Heydər Əliyev çıxışlarının birin də demişdir: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı" "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

## Xalqın və dövlətin xilas günü

Azərbaycan ziyalılarının, cəmiyyətin müxtəlif təbəqələrinin israrlı xahişlərindən sonra Ulu Öndərimiz Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu baxımdan 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Dahi Öndər Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, Ulu Öndər 1993-cü il oktyabrın 3-də xalqın mütləq əksəriyyətini səsini və dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndərimiz Heydər Əliyev 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. O, 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi."Əsrin müqaviləsi" 1994-cü ilin sentyabr ayının 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında bağlanmışdır. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmışdır. Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.";"Əsrin müqaviləsi"nin imzalanmasından sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi.

## Yeni uğurlar və yeni nailiyyətlər

Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələr də mühüm addımlar atdı, qərarlar imzaladı. Dahi Öndərin təşəbbüsü ilə Milli Məclis 1998 - ci il fevralın 10 - da Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi barədə qanun qəbul etmişdir. Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasının bir daha sübut edir. Bunula bağlı Ulu Öndərimiz Heydər Əliyevin insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında 22 fevral 1998-ci ildə imzaladığı Fərmanında qeyd olunur ki, Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

## İnkişafın yeni dövrü

Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət dünən olduğu kimi bu gündə uğurla davam etdirilir. Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində Cənab İlham Əliyevi prezident seçməklə sülhün, tərəqqinin, inkişafın, əmin-amanlığın və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi. Cənab İlham Əliyevin Prezident kimi Azərbaycana rəhbərlik etdiyi 22 il ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb. Birmənalı şəkildə demək olar ki, regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Ötən 22 il ərzində Bakı - Tbilisi - Ceyhan, Bakı - Supsa, Bakı - Novorossiysk neft və Bakı - Tbilisi - Ərzurum neft-qaz sektoruna 30 milyard ABŞ dollarından artıq sərmayə cəlb edilmiş, geniş ixrac infrastrukturu yaradılmış və ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir. Xarici investisiyanın ölkə iqtisadiyyatına cəlb edilməsi nəticəsində Dövlət Neft Fondunun valyuta ehtiyatları dəfələrlə artmışdır. Təbii ki, maliyyə daxil olunmaları müxtəlif sosialyönümlü layihələrin icrasına, əhalinin sosial vəziyyətlərinin yaxşılaşmasına, yeni iş yerlərinin artmasına xidmət edir. Beynəlxalq maliyyə fondlarının gəldikləri qənaətə və açıqladıqları illik hesabatlara görə, Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlətdir. Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatdırılıb. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşıb. Birmənalı şəkildə demək olar ki, uğurların, qələbələrin yüksək zirvəsi 30 il erməni işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən Müharibəsi ilə azad edilməsidir. Bu gün artıq münaqişə və pozulmuş sərhədlərimiz yoxdur. Bu gün öz gücü hesabına torpaq bütövlüyün təmin edən Azərbaycan dövləti var. Buna görə təbii ki, Ulu Öndərimiz Heydər Əliyevə və Onun əsasını qoyduğu siyasətini uğurla davam etdirən Prezidentimiz, Fateh Sərkərdə, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə minnətdarıq.

***İLHAM ƏLİYEV***

# Ukrayna üçün yeni "sülh planı"




***ABŞ prezidenti Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymağa yönəlmiş 28 bəndlik sənədi təsdiqləyib. NBC News yüksək səviyyəli administrasiya rəsmisinə istinadən xəbər verir ki, qərar bu həftə qəbul edilib. Xüsusi nümayəndə Stiv Vitkoff, vitse-prezident J.D.Vens, dövlət katibi Marko Rubio və ABŞ prezidentinin kürəkəni Cared Kuşner təşəbbüsün hazırlanmasında iştirak ediblər. Plan son bir neçə həftə ərzində məxfi şəkildə hazırlanıb. Agentlik qeyd edib ki, inkişaf prosesində ABŞ rəsmiləri həm Rusiya diplomatları, o cümlədən Kirill Dmitriyev və Ukrayna rəsmiləri ilə məsləhətləşiblər.***

Mənbənin sözlərinə görə, plan hər iki tərəf üçün təhlükəsizlik təminatları vasitəsilə davamlı sülhün bərqərar edilməsinə yönəlib. Təşəbbüs Ukraynanın münaqişəni aradan qaldırmaq ehtiyaclarını nəzərə alır. Lakin sənədin detalları hələ açıqlanmır, çünki hələ də əsas tərəflərlə razılaşdırılmalıdır. Məlumata görə, üç ABŞ rəsmisi razılaşmanın əsas istiqamətinin hələ Ukraynaya təqdim edilmədiyini və planın yekunlaşmasının Pentaqonun nümayəndə heyətinin Kiyevə səfəri ilə eyni vaxta düşdüyünü qeyd edib. ABŞ nümayəndə heyətinin missiyasına Ukrayna nümayəndələri ilə iki əsas mövzunun müzakirəsi daxildir: hərbi strategiya və texniki aspektlər, həmçinin sülhə nail olmaq üçün dialoqun bərpası. Eyni zamanda, nümayəndə heyəti potensial sülh prosesini asanlaşdırmaq üçün cəbhə bölgələrini təhlil edirdi.

Qeyd edək ki, Ukrayna təklif olunan sülh planının hazırlanmasına daxil edilməyib. Ukrayna rəsmiləri sənədin yalnız ümumi müddəalarını alıblar, heç bir təfərrüat və ya onun işlənib hazırlanmasında iştirak etmək dəvəti olmadan. Trampın müttəfiqi və Rusiyaya qarşı sanksiyalar layihəsinin müəllifi respublikaçı senator Lindsey Graham "sülh planı"nın ortaya çıxmasından təəccübləndiyini bildirib. O qeyd edib ki, ABŞ-ın Ukraynanı hərbi cəhətdən dəstəkləməyə və təcavüzkarın üzərinə iqtisadi və resurs xərcləri qoymağa hazır olduğunu aydın nümayiş etdirməyənə qədər heç bir razılaşma uğurlu olmayacaq. "Mən bu barədə heç nə bilmirəm. Amma bunu deyəcəyəm: ümid edirəm ki, Putin Ukraynaya daha bahalı hərbi yardım göstərməyə davam etməkdə ciddi olduğumuza inanana qədər heç bir plan yoxdur - heç bir plan işləməyəcək", - Qrem deyib.

Xatırladaq ki, "Axios" noyabrın 19-da Donald Tramp administrasiyasının Ukraynada müharibəyə son qoymaq üçün gizli şəkildə yeni plan hazırladığını və bu barədə Moskva ilə məsləhətləşdiyini bildirmişdi. Plan 28 bənddən ibarətdir. KİV-in məlumatına görə, Ukrayna ABŞ-dan sülh təklifləri ilə bağlı "siqnallar" alıb. Lakin Kiyev planın müzakirələrində iştirak etməyib. Amerika hərbçilərindən ibarət nümayəndə heyətinin bu həftə Kiyevdə sülh sazişi layihəsini təqdim edəcəyi gözlənilir.

## "Daha çox kapitulyasiya"

Amerika mediası iddia edir ki, ABŞ Ukraynaya müharibəni bitirmək üçün yeni plan təqdim edib və bu plana prezident Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff rəhbərlik edib. Axios daha əvvəl anonim mənbələrə istinadən xəbər vermişdi ki, yeni sülh planı dörd əsas kateqoriyaya bölünən 28 bənddən ibarət olacaq: Ukraynada sülh, təhlükəsizlik zəmanətləri, Avropada təhlükəsizlik və ABŞ-ın Ukrayna və Rusiya ilə gələcək münasibətləri. "Financial Times" iddia edir ki, plan artıq Ukrayna tərəfinə təqdim olunub, amma Kiyev bunu qəbuledilməz hesab edir.

"Axios"un sözlərinə görə, plan bütün Donetsk vilayətinin Rusiyaya təslim olmasını, ABŞ-ın Krım və Donbasın Rusiya əraziləri kimi tanınmasını, Zaporojiya və Xerson vilayətlərində cəbhə xəttinin dondurulmasını nəzərdə tutur. "Ukrayna və onun tərəfdarları bunu Rusiyaya böyük güzəşt kimi qəbul edərdilər. Ağ Evin nöqteyi-nəzərindən, ABŞ rəsmisinin fikrincə, müharibə davam edərsə, Ukrayna onsuz da bu ərazini itirəcək və buna görə də dərhal razılığa gəlmək onun maraqlarına uyğundur", - Axios yazır. Nəşrin yazdığına görə, Tramp administrasiyası Donbas ərazisinin, yəni Ukraynanın könüllü olaraq çıxacağı Donetsk və Luqansk vilayətlərinin Rusiyanın nəzarətinə verilməsini, həm də demilitarizasiya zonasına çevrilməsini təklif edir. Zaporojye və Xerson vilayətlərində cəbhə xəttinin dondurulması, Rusiyanın hələ müəyyən edilməmiş bəzi əraziləri Ukraynaya verməsi ehtimalı ilə təklif edilir. Axios-a görə, ABŞ özü və Avropalı müttəfiqləri adından Krımı və Donbası rəsmən Rusiya əraziləri kimi tanıyacağını vəd edir, lakin Ukraynanı buna məcbur etməyəcək. "Axios" ukraynalı mənbəyə istinadən, planın Ukrayna ordusunun yarıya qədər azaldılmasını nəzərdə tutması barədə daha əvvəl yayılan məlumatı təsdiqləyib. Bütün bu güzəştlərin müqabilində ABŞ Ukrayna və Avropaya təhlükəsizlik zəmanətləri təklif edir, lakin bu təminatların dəqiq mahiyyəti aydın deyil.

## Rusiyanın xeyrinə plan

Vladimir Putinin xüsusi nümayəndəsi Kirill Dmitriev Axios-a verdiyi müsahibədə planla bağlı nikbin olduğunu bildirib, çünki onun sözləri ilə desək, "Rusiyanın mövqeyi həqiqətən ilk dəfə eşidilir". O əlavə edib ki, plan avqustda Alyaskada Rusiya və ABŞ prezidentlərinin müzakirə etdiyi prinsiplərə əsaslanır. Financial Times (FT) və Reuters-in müşahidəçilərinə görə, Amerikanın yeni sülh planı Rusiyanın tələblərinə əsaslanır. FT anonim mənbələrə istinadən yazır ki, Amerika planına başqa şeylərlə yanaşı, Ukrayna ordusunun yarıya bölünməsi və Ukraynanın bütün Donbasdan imtina etməsi daxildir. "Bu, Ukraynanın kapitulyasiyasına bərabərdir, insayderlər mənə deyirlər ki, bunlar sadəcə Kremlin maksimalist tələbləridir", - Miller yazıb.

Reuters çərşənbə günü axşam həmçinin bildirib ki, Amerika planına başqa şeylərlə yanaşı, Ukrayna ordusunun azaldılması da daxildir. İki mənbəyə görə, ABŞ Ukrayna prezidenti Vladimir Zelenskiyə bu təkliflərlə razılaşmalı olduğunu açıqlayıb. RBC-Ukrayna əlavə edir ki, öz mənbələrinə görə, plana Ukraynanın uzaqmənzilli silahlara malik olmasına qadağa da daxildir.

## Ukraynaya təzyiq

Təşəbbüslə tanış olan bir neçə şəxs FT-yə bildirib ki, Rusiya və ABŞ-ın yeni, radikal təklifi Kiyevi əhəmiyyətli güzəştlərə çağırır və prezident Vladimir Zelenski artıq onu qəbul etməyə çağırılıb. Danışıqlarla tanış olan mənbə Financial Times-a bildirib ki, planın hazırlanmasında bir qrup Rusiya və Amerikanın indiki və keçmiş məmurları iştirak edib, plan hələ hazırlanma mərhələsindədir.

Planı bu həftə Mayamidə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerovla görüşən Witkoff Kiyevə təqdim edib. Əhəmiyyətli olan odur ki, plan həm də Ukraynadan əsas silah kateqoriyalarından imtina etməyi tələb edir və onun müdafiəsi üçün həyati əhəmiyyət kəsb edən ABŞ hərbi yardımının azaldılmasını nəzərdə tutur. Plan həmçinin rus dilinin Ukraynanın rəsmi dövlət dili kimi tanınmasını və Rus Pravoslav Kilsəsinə rəsmi statusun verilməsini nəzərdə tutur. Sənədlə tanış olan şəxs onu "Rusiyanın xeyrinə çox əyilmiş" çox ümumi sənəd kimi xarakterizə edib. Planla tanış olan başqa bir şəxs bunu "Putin üçün çox əlverişli" adlandırıb.

Planla tanış olan Kiyev rəsmiləri bildiriblər ki, bu, Kremlin maksimalist tələblərinə dərindən uyğundur və ciddi dəyişikliklər olmadan bu, Ukrayna üçün qəbuledilməz olacaq.




## Ternopil qurbanları və ABŞ sülh planı

Rusiyanın hücumu nəticəsində Ternopolda ölən və yaralananların sayı sürətlə artmaqda davam edir. Fövqəladə Hallar Dövlət Xidməti Rusiyanın şəhəri atəşə tutması nəticəsində üçü uşaq olmaqla 26 nəfərin həlak olduğunu bildirib. Yaralıların sayı 18 uşaq olmaqla 92 nəfərə çatıb. Xilasedicilər yeddi uşaq olmaqla 46 nəfəri xilas ediblər. Noyabrın 19-u axşam saatlarına olan məlumata görə, dağılmış binada 26 nəfər itkin düşüb. Onlardan üçü uşaqdır.

Rusiya ordusu Kh-101 qanadlı raketləri ilə Ternopil şəhərində yaşayış binalarına zərbələr endiriblər. Bu barədə Ukrayna Hərbi Hava Qüvvələri məlumat yayıb. Hüquqmühafizə orqanları hazırda rusların Ukrayna vətəndaşlarına qarşı növbəti terror aktını müəyyən etmək və sənədləşdirmək üçün raket qalıqlarını araşdırır. "Axios" xəbər verir ki, Donald Tramp administrasiyası gizli şəkildə Ukraynada müharibəyə son qoymaq üçün yeni plan hazırlayır və Moskva ilə məsləhətləşir. Sözügedən plan 28 bəndlik plandır. Ukrayna ABŞ-dan sülh təklifləri ilə bağlı "siqnallar" alıb. Lakin Kiyev planın müzakirələrində iştirak etməyib. ABŞ hərbi nümayəndə heyətinin bu həftə Kiyevdə sülh sazişi layihəsini təqdim edəcəyi gözlənilir. Zelenski Trampın sülh təşəbbüslərini şərh edərək, Ukraynanın mənalı formatlarda sülhün bərqərar olması üçün işləməyə hazır olduğunu bildirib. Müharibəyə son qoymaq səlahiyyəti yalnız ABŞ prezidenti Donald Trampa məxsusdur. NBC News yüksək rütbəli administrasiya rəsmisinə istinadən xəbər verir ki, ABŞ prezidenti Rusiyanın Ukraynaya qarşı müharibəsini dayandırmağa yönəlmiş 28 bəndlik sənədi təsdiqləyib. Qərar bu həftə qəbul edilib.

## Bu arada...

Ali Rada energetika naziri Svitlana Qrinçuku vəzifəsindən azad edib. Müvafiq qərarı parlamentin çərşənbə günü, noyabrın 19-da keçirilən plenar iclasında 315 deputat dəstəkləyib. Nazirlər Kabineti Artem Nekrasovu Ukraynanın energetika naziri vəzifəsini icra edən təyin edib. Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Çərşənbə günü gecə Rusiya Ukrayna ərazisinə 524 raket və müxtəlif tipli pilotsuz təyyarələr atıblar. Düşmən kritik infrastruktura hücum etdi. Ukrayna Hərbi Hava Qüvvələrinə görə, hava hücumundan müdafiə və elektron döyüş bölmələri hədəflərin əksəriyyətini vurub və ya məhv edib. Düşmən Rusiyanın müvəqqəti işğal etdiyi Krımın Şatalovo, Kursk, Orel, Millerovo, Primorsko-Axtarsk və Qvardeyskoye yaşayış məntəqələrindən 476 ədəd "Şahed", "Gerber" və digər pilotsuz uçan aparatları buraxıb. Təxminən 300-ə yaxın pilotsuz təyyarə hücuma məruz qalan "şahed" pilotsuz təyyarələrdir.

Yenidən Xarkov, Çerniqov, Dnepropetrovsk, Lvov, İvano-Frankivsk, Çerkassı və Donetsk vilayətlərində enerji infrastrukturu obyektlərinə raket və pilotsuz təyyarələrlə kütləvi zərbə endirilib. Energetika Nazirliyindən verilən məlumata görə, zərər çəkmiş bütün regionlarda enerji infrastrukturuna irimiqyaslı raket və dron hücumunun nəticələrinin aradan qaldırılması istiqamətində səylər davam edir. Həmçinin bildirilib ki, bərpa işləri zamanı Dnepropetrovsk vilayətində təmir briqadalarından biri atəşə tutulub. Tətil zamanı dörd işçi yaralanıb, hamısı xəstəxanaya yerləşdirilib.

Noyabrın 19-da gecə saatlarında Xarkovda Rusiyanın hücumu nəticəsində həlak olanların sayı 46-ya çatıb, o cümlədən 9 və 13 yaşlı iki uşaq. Noyabrın 19-da Rusiyanın Xarkovda gecə saatlarında hücumu nəticəsində ilkin hesablamalara görə, 40 evə ziyan dəyib, 3000-dən çox pəncərə sındırılıb. Terexovun sözlərinə görə, gecə yarısı ruslar 19 "şahed" pilotsuz təyyarə ilə Xarkova hücum edib. PUA-lardan biri partlaya bilməyib. Cümə axşamı Ukraynanın bütün bölgələrində 24 saat elektrik enerjisi kəsiləcək. "Ukrenerqo" qeyd edib ki, məhdudiyyətlər bugünkü və əvvəlki Rusiya raket və dronlarının enerji obyektlərinə kütləvi hücumlarının nəticələri ilə bağlıdır. Bununla belə, məhdudiyyətlərin vaxtı və əhatə dairəsi dəyişə bilər.

Cari günün əvvəlindən və saat 16:00-a olan məlumata görə, cəbhədə Ukrayna ordusu ilə rus işğalçıları arasında 140 döyüş toqquşması baş verib. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatına görə, hazırda toqquşmaların sayı dünənki rəqəmdən iki dəfə çoxdur. Ruslar səylərinin böyük hissəsini Ukrayna Silahlı Qüvvələrinin 50-yə yaxın hücumunu dəf etdiyi Pokrovsk sektorunda cəmləşdirir.

Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı Aleksandr Sırski Pokrovsk sektorundakı bölmələrə baş çəkib, cəbhədəki vəziyyətlə bağlı müşavirə keçirib, qoşunların döyüş sursatı və maddi-texniki təchizatının gücləndirilməsinə göstəriş verib. O, əmin edib ki, Pokrovsk ərazisində düşmən həm hərəkət cəhdləri zamanı, həm də cəmləşmə rayonlarında aşkar edilərək məhv edilir.

***V.VƏLİYEV***

# Ərköyün uşaqlarla bədbəxt gələcəyə...



Təəssüf ki, böyütdüyümüz uşaqların tərbiyəsinə heç də hamımız eyni düşüncə prizmasından baxmırıq. Aramızda buna daha çox diqqət edənlər də, uşağın nazı ilə oynayanlar da, onunla həddindən artıq qaba davrananlar da var. Birincini çıxmaq şərtilə digər iki yanaşma səhvdir və uşaqların gələcək həyatına mənfi təsir edən amillərdir. O amillər ki, bu gün verdiyimiz tərbiyənin sabah ağrısını çəkən də özümüz olacağıq. Belə isə nə üçün bunu bu gündən fikirləşmirik? Nə üçün uşaq tərbiyəsində bəzən bilə-bilə, bəzən də bilməyərəkdən, lakin öyrənmək də istəmədən səhvə yol veririk? Söhbətimizi bu mövzu ilə davam etdirək ki, bəlkə bəzi valideynlər gec olmadığını anlayıb, uşaqlarının gələcək bədbəxtliyinin qarşısını bu gündən ala bilsinlər...

## Ev, ailə, uşaq...

Təbii ki, evlərimiz kimi, ailələrimiz də bir-birindən çox fərqlənir. Kimi kirayədə yaşayır, illərdir ki, bir ev almaq üçün cəhd edir, lakin hələ də bunu reallaşdıra bilmir. Kimi ortabab bir evdə ömür sürür, kimi isə 2-3 mərtəbəli gözəl həyətli evdə yaşayır. Kiminin evində ət çəkməyə bir maşını yoxdur, evin xanımı hələ də paltarları əlində yuyur, bir televizoru yoxdur ki, uzun gün ərzində onunla başını qatsın, digər bir xanım isə bütün günü televizorun qarşısındadır, bütün işlərini qulluqçular görür. Ətçəkən, paltaryuyan maşınının hansı markaya məxsus olduğundan xəbəri yoxdur. Bunlar kimi bir-biri ilə kəskin ziddiyyətdə olan onlarla misal çəkmək olar.

Lakin ailələrdə dünyaya göz açan uşaqların hər biri yaşadığı evlərdən, valideynlərinin fərqli vəziyyətindən asılı olmayaraq eynidir: məsum, körpə, təmiz və pak. Onlar Allah-təala tərəfindən bizə bəli, bu formada bəxş olunurlar. Uşaqların ailəmizə gəldiyi gündən etibarən tərbiyəsi, yetişdirilməsi, ona aşılananlar isə sırf valideynlərlə bağlıdır. Bu məsum körpələrin gələcək xoşbəxtliyinin də, bədbəxtliyinin də açarı valideynlərin əlindədir. Həmin gündən ata-ana tək valideynə-uşaq sahibinə deyil, həm də qoruyucuya, tərbiyə edənə, yetişdirənə çevrilirlər. Elə mövzumuz da budur. Bəs hər valideyn bunları bacara bilirmi? Övladını gələcək üçün mükəmməl yetişdirə, tərbiyə edə bilirmi? Yoxsa evlər, həyatlar, yaşayışlar kimi, uşaqlar da fərqli böyüyür?..

## Ərköyünlüyün acı nəticəsi

Bəli, evlər, ailələr, həyatlar, yaşayışlar kimi, uşaqlarımız da fərqli böyüyür. Yəni bunu hər birimiz yaxşı görür və bilirik. Uşaqların ərköyün böyüdülməsi isə heç də ailənin varlı, kasıb olmasından irəli gəlmir. Təminatlı ailələr var ki, orada uşağa verilən tərbiyə çox mükəmməl şəkildə olur. Məsələn, illər öncə yaşadığım rayonda birinci katib vardı. Onun övladları ərköyünlükdən kənar uşaqlar idi. Biri bacımın, biri isə mənim sinif yoldaşım idi. Onlar o qədər mehriban, sadə uşaqlar idilər ki... O vaxt uşaq idik. Bütün bunları çox da yaxşı anlamırdıq. Bu günün prizmasından onların bizimlə birgə məktəbə getməsini, oynamasını, söhbətlərini xatırlayanda həqiqətən onların ərköyünlüyü, özlərini bizdən fərqli hesab etmələri ilə bağlı heç nə yada düşmür. Lakin valideynləri vəzifədə olan digər uşaqlar da məktəbimizdə təhsil alırdı. Onlar demək olar ki, sinif yoldaşları ilə danışmırdı. Geyimləri, çantaları ilə fərqlənirdilər. Onları həm də məktəbə maşın aparıb gətirirdi. Bax bu bir-birindən fərqli iki misal- həm də hər ikisinin imkanlı ailələrə məxsus olması iki ailənin övladlarının özlərini necə aparması ilə ümumilikdə ailələrin verdiyi tərbiyəni nümayiş etdirirdi.

Uşaqlar kiçik yaşlarından düzgün tərbiyə edilməlidir. Onlara hər istəyinin yerinə yetirilməsinin mümkün olmadığı ətraflı izah edilməlidir. Valideynlər var ki, uşaq nə istədisə, təcili şəkildə onu həyata keçirməyə başlayır. Bu isə uşaqda alışqanlıq yaradır. O, düşünür ki, nə istəsəm, o da olacaq. Bu günlərdə marketdə ata-ana və yanlarındakı 3-4 yaşlı oğlan uşağının timsalında xoşagəlməz bir mənzərə ilə qarşılaşdım. Uşağın qucağı dolu idi. Baxdım ki, əlinə keçəni götürür. Onun bu hərəkəti isə valideynlərinə sanki ləzzət edirdi. Elə bil uşaqları ilə qürur duyur, ona daha da yaxşı imkan yaradırdılar ki, nə istəyirsə, götürsün. Onlara sonadək baxmağı, nəticəni gözləməyi qərara aldım. Seyr etdikcə də yaxınlarda bir ana və qızla bağlı mənzərə də xəyalımda canlandı. Qızcığaz anasından gəlincik istəmişdi. İçdən, amma sakitcə ağladığını da görmüşdüm. Lakin anası onu o qədər astadan, qəlbinə toxunmadan başa salırdı ki... "Qızım, bu dəfə yox, növbəti gəlişimizdə alacağam. Axı sənə evdə demişdim ki, bu dəfə başqa şeylər almaq üçün gedirik. Sən yadından çıxardınmı evdəki söhbətimizi?" Uşaq anasını dinləyir, gəlincik istəyini də dəf edə bilmirdi. Odur ki, birdən anasının ayaqlarını qucaqlayıb necə hıçqırdısa, mənim kənarda ürəyim parça-parça oldu. Lakin tərbiyənin bu forması da ürəyimcə oldu. Yaxınlaşıb gənc anaya, "sənə hala olsun",- dedim.

Marketdəki budəfəki ata-ana isə baxdım ki, uşağın götürdüklərini qoynundan əsla çıxarıb arabaya qoya bilmir. Uşağın götürdükləri qucağındaca kassaya yaxınlaşdılar. Orada isə zor-bəla ilə onları uşaqdan qoparıb pulunu ödəyib yenidən qucağına doldurdular.

Budur, gözlərim qarşısındakı hər iki hadisə "dil açıb" uşaqlara verilən tərbiyədən danışır. Ərköyün və ərköyünlükdən uzaq uşaqlardan söhbət açır. Bu gündən onların gələcəyini gözlər önünə gətirir.

Onu da vurğulamaq yerinə düşər ki, bütün etdiyi hərəkətlərə, söydüyü söyüşlərə görə valideynləri, nənə-babaları tərəfindən alqışlanan uşaqlar minlərlədir. Əmilər-dayılar var ki, uşaqlara söyüş öyrədir, sonra da onu danışdırıb gülürlər. Nənə-babalar var ki, uşağı başına çıxarır. Uşaqsa evə qonaq gələndə də nənə-babanın çiynindən, başından enmir, onlarsa bundan qürur duyurlar. Uşaq var ki, nə isə istəyəndə ayağını yerə çırpır, bir xeyli ağlayır, lakin sonda öz dediyi olur. Artıq ikinci-üçüncü dəfə sözsüz ki, yenə də uşağın dediyi olur, çünki artıq tərbiyənin təməli səhv qoyulmuşdur. Lakin uşaqlar da var ki, ailəsinin imkanlı olmasına baxmayaraq düzgün tərbiyə edilir. Ona hədiyyələr hər gün yox, ad günündə, bayramlarda alınır. İstədiyi hər şey də alınmır. Ona mədəni şəkildə başa salınır ki, bu, sən istədiyin kimi deyil, bu cür olmalıdır. Lakin kasıb ailələr də var ki, uşağın istəklərini qonşudan-qohumdan borc pul almaqla həyata keçirir. Beləliklə, həm öz ailə büdcəsinə, həm də övladının gələcəyinə zərbə vurmuş olur. Valideynlər də var ki, uşaqla ümumiyyətlə, qaba davranırlar, bu da qətiyyən düzgün deyil. Bütün bunların fonunda belə qənaətə gəlmək olar ki, uşağın ərköyün yetişdirilməsi heç də varlı-kasıb olmaqla deyil, düşüncə, təfəkkür məsələsi ilə tənzimlənir.

## Bu gün güldürənlər sabah ağladacaq

Düşüncə və təfəkkürümüzün bəhrəsi olan tərbiyə metodunu tətbiq etməklə övladlarımızı bəzən doğru yetişdirmirik. Bu gün onların ərköyünlüyünə, şıltaqlığına gülürük, başımıza çıxarırıq. 2-3 yaşlı uşaq bizim seçdiyimiz paltarı geyinmir, ayağını yerə çırpır ki, mən öz istədiyimi geyinəcəm. Kiçikyaşlı uşaq bişirdiyimiz yeməyi yemir, ayağını yerə çırpıb öz istədiyini tələb edir. Oyuncaqları ilə aqressiv davranır, bizsə anlaya bilmirik ki, bu aqressivlik sabah onda başqa cür təzahür edəcək.

Uşağımız dərs oxumaq istəmir, biz də videosunu çəkib, sosial şəbəkələrdə paylaşırıq, gülüş toplayırıq. Bu gün azyaşlı övladımıza ərə getməklə bağlı nələrisə öyrədib, sonra da videosunu çəkib paylaşırıq. Camaatı özümüzə güldürürük. Fəxr edirik, qürur duyuruq ki, bizim övladımız hamını güldürür.

Yeməməsi, yatmaması, istəklərini, ayağını yerə döyməsini, başlarda, çiyinlərdə gəzməsini, marketdə başımıza açdığı oyunları, xoşuna gəlməyən hədiyyəni gözlərimiz qarşısında parçalamasını, istəmədiyi yeməyi boşqab ilə birlikdə yerə çırpmasını qonşulara, qohumlara fəxrlə, qürurla danışırıq, hansı ki, bunlar çox utandırıcıdır. Bunlar uşağımızın deyil, bizim nə olduğumuzu göstərən amillərdir. Hələlik o, uşaqdır. Onunla bağlı nə görünürsə, deməli, o, bizik. Bizim səviyyəmiz, bizim düşüncəmiz, bizim tərbiyəmizdir. Sabah isə bizim olanlar övladımıza məxsus olacaq. Artıq sabah bütün bunlar bizi güldürməyəcək. Ərköyünlüyün, özbaşınalığın, şıltaqlığın nəticəsi olaraq uşağımız müftəxor, özünü bəyənən, yekəxana, qədirbilməz olacaq. Bu kimi xüsusiyyətlər isə bizə göz yaşından savayı heç nə verməyəcək. Böyüdükcə övladımızın qayğıları da böyüyəcək, istəkləri də artıq kiçikölçülü qalmayacaq. Bunları qarşılaya biləcəyikmi? Yenə də onun hərəkətləri bizi güldürə biləcəkmi? Bu gün ərköyün etdiyimiz uşaqlar sabah məktəbdə müəllimin də başına çıxmaq istəyəcək, sinif yoldaşları ilə kobud davranacaq. Axı həmişə onun istədiyi olub, bağçada da, məktəbdə də, uşaqlar arasında da istəyəcək ki, onun dediyi olsun, səhv-düz, fərqi yoxdur. Bu gün istəkləri anında yerinə yetirilən uşaq bunun məktəbdə də belə olacağını istəyəcək. Lakin orada bu, belə olmayacaq axı. Bugünkü istəklər sabah öz yerini daha bahalı geyimlərə, gəzməklərə, yeməklərə, əyləncələrə verəcək. Bu isə bəzən imkan xaricində olacaq, bəzənsə özünəməxsus problemlər yaradacaq. Belə olanda üzümüz güləcəkmi? Ərköyün böyütdüyümüz uşaq sabah cəmiyyətdə özünü apara bilməyəcək. Dalaşacaq, kobudluq edəcək, qaba davranacaq, nəticədə söyüləcək, döyüləcək, həbs olunacaq. Bütün bunlar necə, bizi güldürəcək, yoxsa ağladacaq. Belə isə bunlar haqqında bu gün düşünmək lazımdır. Sabah gec olar.

**Mətanət Məmmədova**

# Moskva İrəvanda Paşinyana rəqib axtarır...

*Mətləb Salahov: "Rusiya rəhbərliyi gələnilki seçkilərə qədər var gücü ilə İrəvanda yeni tərəfdaş axtarışına çıxıb"*



"Hazırda Ermənistan siyasətində sözün əsl mənasında Nikol Paşinyanın açıq-aşkar üstünlüyü göz qabağındadır. 44 günlük müharibədə Azərbaycana uduzan dövlətin başçısı, hazırkı erməni cəmiyyəti tərəfindən dəstklənirsə bunun mühüm səbəbləri var. İlk növbədə keçmiş Ermənistan prezidentlərinin - revanşist Serj Sarkisyan və Robert Köçəryanın hakimiyyətdə olduqları müddətdə müharibə hesabına var-dövlət sahibi olmaları, "Qarabağ" kartından cinayət və korrupsiya üçün geninə-boluna istifadə edib erməni xalqını Qafqazın dilənçi xalqına çevirmələri, son nəticədə Ermənistanın, sözün əsl mənasında, "quyunun dibinə" düşməsi erməni xalqının N.Paşinyan hakimiyyətinə olan dəstəyinin əsas səbəbləri sırasındadır.

Xalq anladı ki, revanşist "müharibə partiyaları" Ermənistan üçün bir nömrəli düşməndir. İndi Qazaxıstan taxılı Azərbaycan vasitəsi ilə Ermənistana daşınırsa, Ermənistan tədricən regionun kommunikasiya sisteminə qoşulubsa, o zaman erməni cəmiyyəti nədən N.Paşinyanı deyil, keçmiş tör-töküntüləri seçsin?".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov diqqətə çatdırıb ki, hazırda Ermənistan gələnilki parlament seçkilərinə hazırlaşır və belə görünür ki, Moskvaya meylli siyasi qüvvələr bu mərhələdə tam mənası ilə oyundankənar vəziyyətdədirlər. "Diqqət edin: Kilsədən sonra Rusiya vətəndaşı olan erməniəsilli iş adamı, milyarder Samvel Karapetyanın həbsi ilə Ermənistandakı revanşist müxalifətin də "xodu alındı". Hansı ki, Moskva onu N.Paşinyana qarşı əsas alternativ qüvvə kimi meydana çıxarmaq istəyirdi. Bu gün İrəvan məhkəməsinin qərarına əsasən, S. Karapetyan daha iki ay həbsdə qalacaq. Yerdə qalan S.Sarkisyan-R.Köçəryan cütlüyü də erməni cəmiyyətinin gözündə qara qəpik qədər dəyərə sahib deyillər. Artıq Ermənistan sosial şəbəkə seqmentində və rəy sorğularında əhali Ermənistanın hazırkı böhran durumuna görə məhz bu siyasi qanqster dəstəsini və onları dəstəkləyən Rusiyanı günahkar görür. Erməni cəmiyyətində açıq-aşkar Rusiya fobiyası formalaşıb. Bu isə Rusiyanın İrəvanda yeni tərəfdaşlar tapmaq işini xeyli çətinə salır. Artıq həm Rusiya, həm də Ermənistan mediasında Moskvanın yeni siyasi dayaq axtarışında olduğu açıq şəkildə yazılmağa başlanılıb. Bəs Rusiya İrəvanda siyasi tərəfdaş kimi kimi seçəcək? Çətin məsələdir.

Əlbəttə, onun siyasi zibilliyə atılmış keçmiş iqtidarlarla yeni dövr üçün işbirliyi yaratmayacağı dəqiq məlumdur. S.Karapetyandan sonra Moskvaya tam yeni siyasi sima lazımdır. Rusiya bu işi gələnilki parlament və bələdiyyə seçkilərinə qədər həll etmək istəyir. Lakin görünən odur ki, Kremlin bu istəyi N.Paşinyanın Ermənistanı blokadadan çıxartdığı və erməni cəmiyyətində Rusiyaya nifrət formalaşdığı indiki məqamda çətin məsələdir".

**Ayşən Vəli**

# “Mən sizdən Allaha şikayət edəcəyəm!”









***1959-cu il noyabrın 20-də BMT-də Uşaq Hüquqları Bəyannaməsi, 1989-cu ildə isə ”Uşaq hüquqları haqqında” Konvensiya qəbul edilib. Hazırda 193 dövlət həmin konvensiyaya qoşulub. Əksər hallarda dəyirmi masalar arxasında qalan bu qanunlar uşaqların hüquqlarını qoruyurmu? Əgər qoruyursa niyə hər gün dünyada 10 min uşaq yetim qalır? Niyə 300 min uşaq əsgər var, 200 mindən çox uşağın əməyi ağır işlərdə istismar edilir? Beynəlxalq qanunlar onlar üçün də müdafiə mexanizmi deyilmi?***

Beynəlxalq hesabatlara görə, valideyn himayəsindən məhrum qalan uşaqların ümumi sayı təxminən 140 milyondur, hər gün 10 minə yaxın uşaq yetim qalır. Təbii fəlakətlər, aclıq, epidemiyalar, münaqişələr, müharibələr və miqrasiya kimi böhranlar səbəbindən hər gün bu rəqəm daha da artır.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Beynəlxalq Əmək Təşkilatı (BƏT), Avropa İttifaqı, Qlobal Müsəlmanlara Yardım Təşkilatı (MGR) kimi beynəlxalq qurumlar və QHT-lərin hazırladığı hesabatlardan ümumiləşdirilmiş məlumatlara görə valideyn himayəsindən məhrum olan yüz minlərlə uşağın həyat təhlükəsizliyi, qidalanma, sığınacaq, təhsil və psixoloji ehtiyaclarını qarşılamaq üçün təcili yardıma ehtiyacı var. Dünya əhalisinin 2,2 milyardını təşkil edən uşaqların müxtəlif səbəblərdən müdafiəsiz qaldığı bildirilir.

Beynəlxalq Səhiyyə İdarəetmə Birlikləri Təşkilatının araşdırmasına görə, Afrika qitəsində ən çox kimsəsiz uşaq Nigeriyadadır, burada 17,5 milyon yetim uşaq var. Təkcə 2,5 milyon uşaq valideynlərini HİV xəstəliyindən itirdiyinə görə yetim qalıb. 6 milyon yetim uşağı olan Efiopiyada HİV epidemiyasının 14 yaşından kiçik uşaqların yüzdə 44-nün yetim qalmasına səbəb olduğu bildirilir. Uqandada 2,9 milyon uşaq, Syerra-Leonedə 310 min uşaq, Keniyada isə 1 milyon uşaq bu xəstəlik səbəbindən valideynlərini itirib. Dünyada HİV virusu ilə yetim qalan uşaqların sayı 13 milyonu ötüb.

UNICEF-in məlumatına görə, bu gün 30-dan çox ölkədə təxminən 300 min uşaq əsgər döyüşür. Uşaq əsgərlər, silahlı qruplarda yemək bişirmək, məlumat ötürmək, casusluq etmək, bomba hazırlamaq, mina qoymaq kimi bir çox vəzifəni yerinə yetirir. Bəzi hallarda intiharçı və ya hətta seks köləsi kimi istifadə olunur. Onlar ağlasığmaz vəhşiliklərdə iştirak edir və ya bu vəhşiliyə şahid olurlar. BMT-nin məlumatına görə, uşaq əsgərlərdən ən çox istifadə edən ölkələr arasında Mozambik, Konqo, Myanma, Somali, Sierra Lione, Hindistan, Nigeriya, Pakistan, Əfqanıstan, Filippin, Tayland, Cənubi Sudan, Surinam, Mərkəzi Afrika və Liberiya var. Beynəlxalq hesabatlarda əks olunan məlumatlara görə, BMT-nin Uşaq Hüquqları Konvensiyasını ratifikasiya etmiş bu ölkələr qaçqın uşaqları hədəfə çevirir.

Transmilli terror təşkilatları texnologiyanın dəstəyi ilə təbliğatlarını bir çox ölkəyə yaymağı bacarır. Bu təşkilatlar müharibə, qarşıdurma, aclıq, səfalət, təbii fəlakət səbəbi ilə ölkəsindən və ailəsindən uzaq düşmüş uşaqlara çox böyük təzyiq göstərirlər. BMT-nin ”Children and Armed Conflict” illik hesabatının 2024-cü il buraxılışında deyilir ki, 2024-cü ildə 41 min 370 uşağa qarşı qəddarlıq qeydə alınıb ki, bura həm də uşaqların hərbi məqsəd üçün istifadəsi daxildir. Siyahıya uşaqların öldürülməsi, yaralanması, məktəbə hücum, hüquqların pozulması və sair hallar da daxildir.

Müharibə və daxili qarşıdurmalar yetimlərin sayını artıran səbəblər sırasındadır. Bu vəziyyətin yaratdığı kütləvi miqrasiya axını ilə müşayiət olunmadan didərgin düşən uşaqlar müxtəlif cinayətkar təşkilatların tələsinə düşürlər. Uşaqları gözləyən təhlükələr arasında ağır əmək, uşaq döyüşçülər, orqan və fahişəlik mafiyası ön plandadır.

Beynəlxalq Əmək Təşkilatının ”Uşaq Əməyi” hesabatına görə, dünyada 5-17 yaş arasında ən azı 218 milyon uşaq işçi var və onlardan ən azı 73 milyonu təhlükəli işlərdə çalışır. Son 10 ildə dünyada 2 milyondan çox uşaq münaqişələr nəticəsində həlak olub, 1 milyondan çoxu yetim qalıb, 6 milyondan çox uşaq ağır yaralanıb və qalan ömrünü əlilliklə davam etdirməli olub. Kimsəsiz qalan uşaqlar hələ də Əfqanıstan, Suriya, Pakistan, Afrika və Yaxın Şərq ölkələrindən qaçaraq başqa ölkələrə gedirlər. Getdikləri ölkələrdə immiqrant uşaqlar müxtəlif qruplar tərəfindən qeyri-qanuni məqsədlər üçün istismar edilir.

Avropa İttifaqı Polis Xidməti hələ 2016-cı ildə əksəriyyəti Suriya və Əfqanıstandan olan 63 min qaçqın uşağın Avropaya gəldiyini və onlardan 10 minə yaxınının Avropada itdiyini açıqlamışdı. İtkin uşaqlarla bağlı 26 ölkədə fəaliyyət göstərən ”Avropada itkin uşaqlar” adlı beynəlxalq QHT-nin məlumatlarına görə, 2014-2017-ci illər arasında qitədə itkin düşən qaçqın uşaqların sayı 30 min olub. QHT-nin məlumatına görə son 5 ildə xüsusilə Əfqanıstan, Suriya və Eritreyadan 200 min kimsəsiz uşaq Avropaya gəlib. Bu uşaqların 700 nəfəri Avropaya gedən yolda həlak olub.

2019-2021-ci illərdə dünyada 18 min 291 uşaq itkin düşüb. Bu rəqəmlərin ailələrin hüquq-mühafizə orqanlarına xəbərdarlıqları əsasında aparılan qeydlərə əsaslandığını nəzərə alsaq, bildirilməyən və qeydiyyatı olmayan çoxlu sayda kimsəsiz uşaq olduğunu təxmin edə bilərik. 2024-cü ildə ICMEC (İtkin və İstismar Olunan Uşaqlar üzrə Beynəlxalq Mərkəz) məlumatlarına görə, 13 yaşadək təxminən 18 min 100 uşaq, 14-17 yaş arasında isə 80 min 800 gənc itkin düşüb. Kanadada 2024-də 32 min 860 uşaq itkin kimi qeydə alınıb. Cənubi Koreyada 2024-cü ildə 25 min 692 uşaq itkin düşənlərin qeydiyyatında olub. Rumıniyada 9888 uşağın 2024-cü ildə itkin qeydiyyatında olduğu bildirilir.

Dünyanın hər yerində zülmə məruz qalan, döyülən, işgəncə görən, istismar edilən uşaqlar var. Dünyanın hər yerində uşaqlar təmizdir, safdır, günahsızdır. Dünyanın hər yerində uşaqlar öləndə, öldürüləndə, ac qalanda, istismar ediləndə insanlığa və onları qorumayan beynəlxalq qanunlara ”tfu!” edirlər səssizcə. Üsyan edə bilmirlər, müqavimət göstərə bilmirlər, özlərini qoruya bilmirlər. Hər gün daha da vəhşiləşən dünyaya etirazları da səssiz olur.

***Lalə Mehralı***

***PS: Suriya müharibəsi, 2014-cü il. Bombardmandan yaralı çıxarılmış 3-4 yaşlarında körpə oğlan uşağının son nəfəsində ”Mən sizdən Allaha şikayət edəcəm, hər şeyi ona danışacam” deyib can verməsi dünyanın və o körpəni qorumayan beynəlxalq qanunların üzünə tüpürmək demək deyildimi?***



## FELYETON

# Salam verdim, devikdilər...

Noyabrın 21-i Beynəlxalq Salamlaşma Günüdür. Məncə bu günə ehtiyac yoxdur. Desəniz ki, başın xarab olub, nə danışırsan, salamlaşma günü düz 50 ildir ki, təsis edilib. Bu günün xüsusi mənası var. Baxmayaraq ki, bu, bizdən çox-çox uzaqlarda-Amerikada iki qardaşın ağlına gəlib, dünya ictimaiyyəti də xoş qarşıladığı üçün bəzi ölkələrdə, hətta Azərbaycanda da həmin gün az da olsa, yada salınır, qeyd olunur, salamlaşma gününün qaydalarına görə, həmin gün hələ hər kəs qarşısına çıxan şəxsə onu tanıyıb-tanımamağından asılı olmayaraq salam verə bilər, mən yenə deyərdim ki, bu günə ehtiyac yoxdur.

Axı niyə yoxdur, deyərsinizsə, cavab verərdim ki, onsuz da bizdə salamı alan yoxdur, bu halda salam verməyə də ehtiyac yoxdur...

Məsələn, bir binada yaşayırsan. Düzdür, demirəm ki, burada hamı bir-birini tanıyır. Tanımasa da, bilir ki, bu mənimlə hər gün liftdə, pilləkəndə bir qalxıb-enirsə, burada yaşayır. Deməli, liftə daxil olursan, ”salam, sabahınız xeyir”,- deyirsən, camaat devikir. Sən də başını aşağı salıb bir az peşmanlıq hissi keçirib sonra deyirsən ki, salamımı cəhənnəmə al, gora al, salam Allahın adıdır, məndən demək.

Gedib iş-gücünün dalınca qayıdıb gəlirsən, yenə də üzündən gəlmir axı, başını salıb aşağıya liftə daxil olasan. Deyirsən, salam, axşamınız xeyir. Buradakılar yenə susur. Baxışlarından devikmək yağır...

Nə isə günlərlə salam verirsən, salamını alan olmur. Əksinə camaat devikir devikə bildikcə. Deyirsən, İlahi, mən nə qəbahət etdim ki, bunlar mənə belə tərs baxırlar. Bu baxışlar bilirsiniz nəyi ifadə edir? Sanki səndən qorxurlar ki, onları soymağa çalışırsan və yaxud pul-filan istəyəcəksən.

Elə burada dahi şairimiz Məhəmməd Füzuli də yada düşür: salam verdim, rüşvət deyildi deyə, almadılar. Sonra da özözünə deyirsən ki, ölməz şair bunu 500 il bundan əvvəl deyib. Bunun da üstündən 5 yüzillik keçib, yəni 5 əsr. Bəs bu camaatın təfəkkürü heçmi dəyişməyib...

Vallah, bunlardan nə rüşvət istəyən var, nə də pul-filan. Sadəcə Allahın salamını bir-birimizə qonşuluqda nə üçün verməyək ki?..

Bu səbəbdən də deyirəm ki, qoy dünya 21 noyabrı salamlaşma günü kimi qeyd etsin, hələ üstəlik həmin gün bir-birini tanımayanlar da salamlaşsınlar. Bizə nə dəxli var bunun. Bizdə ki, adama salam verəndə devikir, gəlin camaatı salamla narahat etməyək. Onsuz da:

-Salam.

-

Sabahınız xeyir.

-

-Salam.

-

-Axşamınız xeyir.

-

Belə olan halda, yaxşı, salamlaşmayaq.

***Mətanət Məmmədova***

# YAP-ın təsisindən bu günə: Müstəqil Azərbaycanın siyasi inkişafında tarixi missiya və strateji liderlik

***1992-ci il 21 noyabr tarixində Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransı Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmuşdur. O dövrdə ölkənin içtimai-siyasi vəziyyəti, dərin böhran, idarəetmə xaosu, separatçı təhdidlər və müharibə reallığı milli dövlətçiliyin məhv olmaq təhlükəsini gündəmə gətirirdi. Belə bir zamanda Azərbaycanın görkəmli ziyalılarının, ictimai-siyasi xadimlərinin təşəbbüsü ilə yeni siyasi qüvvənin yaradılması təkcə siyasi hadisə deyil, milli məsuliyyətin ifadəsi idi.***



*Məlahət İBRAHİMOVA, "Tərəqqi" medalı təltifçisi*

Ulu Öndər Heydər Əliyevin dəyərli sözləri ilə desək, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır." Bu tezis bu gün həm siyasi, həm ideoloji, həm də institusional mənada özünü tamamilə doğruldur. YAP-ın təsis edilməsi məhz Azərbaycanın ağır günlərinin məhsulu idi. Dövlət institutları çökmüş, cəmiyyət ideoloji boşluğa düşmüş, dövlət idarəçiliyi dərin siyasi böhran yaşamışdı. Bu şəraitdə Azərbaycan ziyalıları ölkəni xilas edə biləcək yeganə yolun təcrübəli, nüfuzlu və milli düşüncəli liderin - Heydər Əliyevin ətrafında siyasi birlik yaratmaq olduğunu dərk etdilər. Onların təşəbbüsü ilə ölkənin müxtəlif bölgələrini təmsil edən yüzlərlə nümayəndə yeni siyasi qüvvənin yaradılması üçün bir araya gəldi. YAP həmin dövr üçün dövlətçilik ideyasını qorumağı, milli maraqları müdafiə etməyi, ölkəni böhrandan çıxarmağı, real siyasi alternativ yaratmağı qarşısına məqsəd qoymuşdu. Bu baxımdan YAP-ın yaranması təkcə siyasi hadisə deyil, xalqın öz dövlətinə sahib çıxma iradəsinin ifadəsi idi. Azərbaycanın müasir tarixində xüsusi yer tutan "91-lər"in müraciəti cəsarətin, milli iradənin və dövlətçilik məsuliyyətinin nümunəsi kimi qiymətləndirilir. Müraciəti imzalayan ziyalılar ölkədə baş verən proseslərin qarşısını almağın, milli parçalanmanın dərinləşməsinin, dövlət idarəçiliyindəki xaosun aradan qaldırılmasının yeganə yolunu Heydər Əliyevin siyasi səhnəyə qayıdışı kimi görürdülər. Ulu Öndər Heydər Əliyev müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasını "obyektiv zərurət" adlandırmış və bildirmişdi ki, belə bir siyasi təşkilat müstəqil dövlətin möhkəmləndirilməsində tarixi rol oynaya bilər. Şübhəsiz ki, tarix bu uzaqgörən fikrin doğruluğunu tam sübut etdi.

Yeni Azərbaycan Partiyasının təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilmiş və ölkənin bütün bölgələrindən olan 550 nümayəndəni birləşdirmişdir. Konfransda partiyanın yaradılması haqqında qərar qəbul edilmiş, Nizamnamə və Proqram təsdiqlənmiş, Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmiş, Siyasi Şura və İdarə Heyəti formalaşdırılmışdır. Bu tarixi qərar müstəqil Azərbaycan dövlətinin taleyini dəyişən prosesin əsasını qoydu. YAP-ın yaranması ilə ölkədə siyasi sistemin yenidən qurulması, dövlət institutlarının bərpası və milli ideyanın möhkəmlənməsi üçün real əsas formalaşdı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi sayəsində Yeni Azərbaycan Partiyası çox qısa zaman ərzində cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, YAP həqiqətən də " dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəldi. Partiyanın güclü institusional strukturu və liderlik fəlsəfəsi onun ölkədə sabitliyin təmin edilməsində və inkişaf strategiyasının formalaşmasında həlledici rolunu möhkəmləndirdi. 2005-ci ildə keçirilmiş III qurultayda Prezident cənab İlham Əliyevin partiyanın sədri seçilməsi YAP-ın inkişafında yeni mərhələ yaratdı. Prezident cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu müasir çağırışlara uyğun şəkildə zənginləşdirərək partiyanın dövlət idarəçiliyindəki rolunu daha da gücləndirdi.

5 mart 2021-ci ildə keçirilmiş VII Qurultay partiyanın institusional inkişafında mühüm mərhələ oldu. Qurultayda yeni Nizamnamə qəbul edildi, partiya rəhbərliyi yeniləndi. Mehriban xanım Əliyeva partiya sədrinin birinci müavini təyin edildi, 40 nəfərlik İdarə Heyəti və Təftiş Komissiyası təsdiq olundu, partiyanın yeni Proqramı işlənib hazırlandı.

Yeni Proqram YAP-ın siyasi dəyərlər sistemini, prinsip və hədəflərini, müasir çağırışlara uyğun strateji xəttini müəyyənləşdirir. YAP-ın müəyyən etdiyi 11 strateji hədəf Azərbaycan dövlətinin gələcək inkişaf vizyonunu əhatə edir. Bu hədəflər arasında Heydər Əliyev irsinin təbliği, güclü iqtisadiyyat, inklüziv cəmiyyət və sosial təminat, şəffaflıq, insan kapitalının inkişafı, milli maraqlar, ordu quruculuğu, işğaldan azad olunmuş ərazilərin bərpası kimi prioritetlər xüsusi yer tutur. Bu istiqamətlər partiyanın dövlət siyasətinin formalaşmasında aparıcı rolunu nümayiş etdirir. YAP-ın siyasi sistemdəki ən vacib missiyalarından biri ölkədə sağlam siyasi mühitin formalaşdırılmasıdır. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, "ümummilli məsələlərdə fərqli fikir ola bilməz." Bu prinsip əsasında YAP siyasi dialoqu təşviq edir, milli həmrəyliyi gücləndirir, dövlətçilik maraqlarını üstün tutur. VII Qurultayın qərarları göstərdi ki, YAP "iqtidar-xalq" modelinin real işlənməsinə nail olmuş və ölkədə yeni siyasi konfiqurasiyanın formalaşmasına liderlik etmişdir. 21 noyabr 1992-ci il tarixi təkcə bir partiyanın təsisi deyil, Azərbaycanın siyasi müstəqilliyinin, milli təhlükəsizliyinin və dövlətçiliyinin qorunması istiqamətində başlanmış böyük prosesin əsasını qoydu. Yeni Azərbaycan Partiyası ötən 33 ildə: müstəqil dövlət quruculuğunun dayağına, cəmiyyətin aparıcı siyasi qüvvəsinə, Azərbaycanın regional və beynəlxalq maraqlarını təmin edən siyasi sistemin əsas sütununa çevrilmişdir. Bu gün YAP həm siyasi, həm ideoloji, həm də milli dövlətçilik fəlsəfəsinin daşıyıcısı kimi Azərbaycanı yeni zirvələrə aparan real siyasi qüvvədir.

# "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik"

***Noyabrın 20-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və partiyanın Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP-ın təsis edilməsinin 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısındakı abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb.***







Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu, zəngin və çoxşaxəli irsi barədə danışıb. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində şərəfli yol keçərək ümumxalq partiyasına çevrildiyini deyib. V.İsmayılov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqillik yolunda inamla irəliləyir, Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir və Ulu Öndər yolunun alternativi yoxdur. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider müstəqil Azərbaycanın qurucusudur.

YAP Veteranlar Şurasının sədri Ulu Öndərin rəhbərliyi ilə 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu, regionun aparıcı siyasi qüvvəsinə çevrildiyini deyib. O vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir: "Dövlət başçımız xalqımıza tarixi Zəfər bəxş etmiş Müzəffər Liderdir. Bu gün bütün Azərbaycan xalqı, o cümlədən partiya sıralarında birləşən hər bir üzv qürurludur".

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev müasir Azərbaycan tarixinin böyük bir dövrünün dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olduğunu deyib. O qeyd edib ki, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dönəmində Azərbaycan bütün sahələrdə misilsiz inkişaf yolu keçib. E.Allahverdiyevin sözlərinə görə, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib.

Tədbirdə, həmçinin YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, "91-lər"dən, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov və YAP Veteranlar Şurasının üzvü Tahir Quliyev çıxış edərək Heydər Əliyevin çoxəsrlik Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və Yeni Azərbaycan Partiyasının formalaşmasında əvəzsiz xidmətləri barədə danışıblar.

Vurğulanıb ki, Heydər Əliyev dühası ölkəmizin sabitlik, inkişaf və müasirlik yolunu müəyyən edən əsas strateji xətt kimi bu gün də aktuallığını qorumaqdadır. Ümummilli Lider Heydər Əliyevin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi mühüm islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir. Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonda bədii hissə təqdim olunub.

# Ermənilər azərbaycanlılarla sülh şəraitində yaşayacaqlarına inanırlarmı?

*SORĞU NƏTİCƏLƏRİ NƏ DEYİR?*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*








***Ermənistan vətəndaşlarının 70%-i danışıqlar yolu ilə Azərbaycanla sabit və uzunmüddətli sülhə inanmır. Bu, ARAR Sivilizasiya Araşdırmaları Fondunun direktoru Armen Xaçikyanın təqdim etdiyi sosioloji sorğunun nəticələridir.***

Sorğu 2025-ci ilin oktyabrında 1123 respondent arasında keçirilib. Respondentlərin yalnız 33,7%-i hesab edir ki, Donald Trampın vasitəçiliyi ilə əldə olunan razılaşma əsl sülhə gətirib çıxara bilər. Bundan başqa, respondentlərin təxminən 80%-i Azərbaycanla münasibətlər normallaşsa belə, milli silahlı qüvvələrin sayının azaldılmasının əleyhinədir.



Belə çıxır ki, müharibədən və ermənilərin Qarabağdan qovulmasından sonra belə hisslər normaya çevrilib. Hakim partiyanın təcriddən qurtulmağın və firavan ölkə qurmağın yeganə yolunun qonşularla sülhün olduğuna dair cəmiyyətdə güclü inam formalaşdırmaq səylərinə baxmayaraq.

Nikol Paşinyan bu yaxınlarda ”Qarabağ klanı”nın nümayəndələri Robert Köçəryan və Serj Sarkisyanı tənqid edərək, keçmiş prezidentləri, eləcə də onların arxasında duran qüvvələri ittiham etmişdi ki, müharibədən əvvəl aparılan bütün danışıqlar və təkliflər münaqişənin həllinə deyil, respublika üzərində kənar nəzarəti gücləndirməyə yönəlib.

Paşinyan bu siyasətin son məqsədinin Ermənistan dövlətçiliyinin məhv edilməsi olduğunu da vurğulayıb. Paşinyan özünü bir növ millətin xilaskarı kimi qələmə verir, erməni dövlətçiliyi üçün böyük iş gördüyünü deyir.

Serj Sarkisyan, xüsusən, 2020-ci il müharibəsinin qaçılmaz olduğunu və onun nəticəsinin o vaxtkı hakimiyyətin danışıqlardan imtina etməsinin və ordunun döyüş hazırlığının azalmasının nəticəsi olduğunu bəyan edib.

Maraqlıdır ki, döyüş hazırlığının aşağı düşməsi məhz Paşinyanın komandasının öz sələflərini ittiham etdiyi şeydir. Bundan əvvəl parlament sədrinin müavini Ruben Rubinyan bəyan etmişdi ki, Köçəryanın dövründə qüvvələr nisbəti 5 qat Bakının xeyrinə idi, lakin o vaxtkı prezident ölkənin hərbi büdcəsini artırmaq əvəzinə, ailəsinin büdcəsini artırıb.

Vaşinqtonda əldə olunan razılaşmaları şərh edən R.Köçəryan sənədi Rusiya, Ermənistan və Azərbaycanın 2020-ci il noyabrın 9-da üçtərəfli bəyanatı ilə müqayisə edib. Onun sözlərinə görə, məzmun demək olar ki, eynidir. Köçəryan həmçinin Rusiya, ABŞ və Çinin gələcək sülh müqaviləsinin qarantı kimi cəlb olunmasını təklif edib.

Yeri gəlmişkən, 2020-ci ilin bəyanatına görə, Rusiya dəhlizə nəzarət etməli idi, lakin məlum olduğu kimi, İrəvan Vaşinqtona dəhlizin icarəsini təklif edərək, bu məqamı ”unudub”. Paşinyanın məntiqinə görə, Rusiya Ermənistan dövlətçiliyini məhv etmək üçün Qarabağı onun əlindən çıxarıb.



Bu fonda ermənilərin böyük əksəriyyətinin sülh perspektivinə inanmaması Paşinyanın və onun qurmağa çalışdığı ”əsl Ermənistan”ın qüruruna birbaşa zərbədir.

Hakim ”Vətəndaş sazişi” partiyasının deputatı Narek Kahramanyan belə deyir: ”Şəxsən mən azərbaycanlılarla yaşamağa hazır deyiləm”. Maraqlıdır, bu şəxsi fikir partiyanın erməniləri nəyin bahasına olursa olsun azərbaycanlılarla barışmağa çağıran ümumi xətti ilə ziddiyyət təşkil edirmi? Kahramanyan onu da əlavə edib ki, Ermənistanda azərbaycanlılarla birlikdə yaşamış ermənilər, Azərbaycanda ermənilərlə yanaşı yaşamış azərbaycanlılar da var. Aydındır ki, o, Sovet dövründə yaşamış və hələ də xalqlar arasında dostluğun nə olduğunu xatırlayanları nəzərdə tutur. Amma belə açıq-aydın acınacaqlı azlıqdırlar. Yaşlı nəsil bu və ya digər şəkildə tədricən dünyadan gedir, Azərbaycanla heç vaxt sülh şəraitində yaşamayan gənclərin isə buna həvəsi yoxdur.

Sorğunun nəticələrinə qayıdaq: tədqiqat fondunun direktoru A.Xaçikyanın dediyi kimi, sülh perspektivləri ilə bağlı ən böyük bədbinliyi gənclər nümayiş etdirirlər. Bununla belə, Paşinyan öz ”əsl Ermənistan”ını məhz onlarla qurmalıdır.

Bu ayın əvvəlində Azərbaycan prezidenti İlham Əliyev bəyan edib ki, azərbaycanlıların Ermənistana qayıtması nə Ermənistan xalqını, nə də Ermənistan dövlətini qorxutmamalıdır, çünki ”Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə yoluxmayıb və həmişə yaşadıqları ölkələrin dövlətçiliyinə öz töhfələrini veriblər”.

Yeri gəlmişkən, Azərbaycan lideri ilk dəfə deyil ki, belə bir təşəbbüs irəli sürür. Keçən il o, əvvəllər Ermənistanda məskunlaşmış azərbaycanlıların nəhayət öz vətənlərinə qayıdacaqlarını bəyan etmişdi. İki il əvvəl İlham Əliyev ”bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və ya qovulanların övladlarının öz tarixi torpaqlarına necə qayıda biləcəyi- onları ziyarət edə və ya orada yaşaya biləcəkləri” ilə bağlı Ermənistandan aydın bəyanat veriləcəyini gözlədiyini demişdi.

Xatırladaq ki, 19-cu əsrin ortalarında azərbaycanlılar İrəvan əhalisinin əksəriyyətini təşkil edirdi. 80-ci illərdə Ermənistanda 200 minə yaxın azərbaycanlı yaşayırdısa, 1989-91-ci illərdəki deportasiya nəticəsində heç kim qalmadı.

İndi Paşinyana öz qəlibinə uyğun ”əsl Ermənistan” qurmağa ümid edir. Bunun üçün isə o, gələn il keçiriləcək seçkilərdə səlahiyyət müddətini uzatmalıdır. Bir tərəfdən, Paşinyan zahirən rahat ola bilər, çünki real müxalifət faktiki olaraq darmadağın edilib. Digər tərəfdən, sorğunun nəticələri onun bəlkə də siyasi gələcəyi ilə bağlı hökm çıxarır.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
21 noyabr
2025-ci il

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Ailə institutunun zəifləməsi cəmiyyətdə sosial sabitliyi zəiflədir”



***“Ailə institutu hər bir cəmiyyətin sosial konstruksiyasının özəyidir. Psixoloji baxımdan ailə yalnız nikah və qan qohumluğu münasibətlərindən ibarət deyil, həm də insanın şəxsiyyət inkişafını, emosional sabitliyini, sosial davranış modelini formalaşdıran əsas sosial mühitdir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.***

Onun sözlərinə görə, bu institutun zəifləməsi uzunmüddətli sosial sabitlik baxımından ciddi risklər yaradır və bu təsirlər bir neçə istiqamətdə özünü göstərir: ”Ailə institutunun zəifləməsi emosional dayaq sisteminin pozulmasına gətirib çıxarır. Ailə insanın ilk sosiallaşma məkanıdır və burada öyrəndiyi davranış normaları, dəyərlər sistemi gələcək həyatın əsasını təşkil edir. Ailədə gərginliyin, ayrılıqların, valideyn-uşaq münasibətlərində soyuqluğun artması uşaqlarda özünəgüvən çatışmazlığı, aqressiya, emosional qeyri-sabitlik, sosial mühitə uyğunlaşma çətinlikləri kimi nəticələr doğura bilir. Bu isə cəmiyyətin gələcək nəsillərində psixoloji gərginlik və davranış pozuntularının artmasına zəmin yaradır.

Ailə institutunun zəifləməsi sosial məsuliyyət hissinin azalmasına səbəb olur. Psixoloji araşdırmalar göstərir ki, güclü ailə bağları olan fərdlər daha stabil, başqalarına qarşı daha empatik və cəmiyyətə inteqrasiya olunmuş olurlar. Əksinə, ailə bağlarının zəiflədiyi mühitdə fərdilik həddindən artıq güclənir, qarşılıqlı dəstək zəifləyir. Bu isə sosial parçalanma, ictimai etimadsızlıq və kollektiv davranışın zəifləməsi kimi nəticələr verir.

Ailənin funksional rolunun azalması sosial riskləri artırır. Ailə təkcə emosional yox, həm də iqtisadi və sosial təhlükəsizlik məkanıdır. Ailədəki böhranlar - boşanmalar, uzunmüddətli konfliktlər, valideyn nəzarətinin azalması - gənclərin riskli davranışlara meyilliliyini artırır: erkən yaşda aqressiya, kriminal davranışlar, psixoaktiv maddələrdən istifadə və sosial deviantlıq halları artır. Bu isə uzunmüddətli perspektivdə cəmiyyətin təhlükəsizlik strukturlarına daha çox yük salır. Ən mühüm məsələ isə sosial institutlara inamın azalmasıdır. Ailə münasibətləri sabit olmayan cəmiyyətlərdə insanların ümumi psixoloji təhlükəsizlik hissi də zəifləyir. Bu, həm məktəb mühitində, həm də iş və icma münasibətlərində özünü göstərir”.

***Ziya Hikmətoğlu***

# Azərbaycanda niyə xarici banklar fəaliyyət göstərmir?

## *İqtisadçı səbəbləri açıqladı*






”Bank faizlərinin yüksək olmasının səbəbi Mərkəzi Bankın uçot dərəcəsinin yüksək olmasıdır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Natiq Cəfərli bildirib. Onun sözlərinə görə, uçot dərəcələri yüksək olduqda, təbii olaraq kredit faizləri də yüksək olur: ”Ölkəmizdə depozit faizləri də yüksəkdir. İnsanlar öz vəsaitlərini evdə saxlamasınlar deyə, Mərkəzi Bankın siyasəti nəticəsində depozit faizləri 10%-dək yüksəldi. Yəni 10%-lə depozit götürən bank təbii ki, 10%-dən yuxarı həcmdə kredit verməlidir.

Xarici bankların ölkəmizdə fəaliyyət göstərməməsinə gəldikdə isə Azərbaycan beynəlxalq öhdəliklərlə bağlı bəzi aktlara üzv olmayıb. Ümumdünya Ticarət Təşkilatı və digər beynəlxalq təşkilatlara Azərbaycan üzv olmayıb. Həmçinin ölkəmizdə bank sahəsi ilə bağlı oyun qaydaları çox sərtdir. Azərbaycan xarici bankların ölkəmizdə fəaliyyət göstərməsinə həmişə ehtiyatla yanaşıb”.

***İlkin Məmmədkərimov***

# Mərkəzi Gömrük Hospitalında Yaponiyanın ”Digital Knowledge” şirkətinin nümayəndələri ilə görüş keçirilib

19 noyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında rəqəmsal təhsil texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan Yaponiyanın ”Digital Knowledge” şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, ”Digital Knowledge” şirkətinin Beynəlxalq İnkişaf Ofisinin rəis müavini Yoşihiro Giyoda, Xidmətlərin Təşviqi Şöbəsinin rəhbəri Masayuki Nohara, Qlobal İKT Təhsil Həllərinin İnkişafı Şöbəsinin əməkdaşı Nquyen Ti Tu Tao, Beynəlxalq Biznes Şöbəsinin rəhbəri Kendzi İçimura və digər nümayəndələr görüşdə iştirak ediblər.




Görüşdə xəstəxana tibb bacılarının davamlı təhsil və peşə bacarıqlarının artırılması üçün innovativ elektron platformaların tətbiqi, eyni zamanda xəstə və yenidoğulmuşlara dair rəqəmsal sağlamlıq kartlarının hazırlanması, kağızsız tibbi idarəetmə sisteminə keçid, rəqəmsal tibbi xidmətlərin genişləndirilməsi və bu istiqamətdə gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**